UOT 82
https://doi.org/10.59849/2311-8482.2025.3.26

NƏRMİN MƏMMƏDOVA*

# LƏNKƏRAN ƏDƏBİ MÜHİTİNİN FORMALAŞMASININ TARİXİ- MƏDƏNİ AMİLLƏRİ

*XIX əsrin II yarısında Azərbaycanda ədəbi mühit anlayışı geniş vüsət amağa başlamışdır. Bu dövrdə ədəbi məclislərin formalaşması Azərbaycan ədəbiyyatı üçün bir çox cəhətlərdən istər ideoloji, istər dini-fəlsəfi-irfani, istər əxlaqi-didaktik, istər coğrafi, istər tarixi, istər mədəni baxımdan olduqca mühüm hadisələrdən biridir. Lənkəran ədəbi mühitinin formalaşması zəngin tarixi və mədəni amillərlə bağlıdır. Tarix boyu Lənkəran təkcə iqtisadi və strateji baxımdan deyil, həm də mədəni və ədəbi cəhətdən ölkənin önəmli mərkəzlərinədən biri olmuşdur. Bu şəhərdə formalaşan ədəbi mühit müxtəlif tarixi və mədəni amillərin təsiri altında inkişaf etmiş, bölgənin mənəvi həyatında mühüm rol oynamışdır. Lənkəran ədəbi mühitinin formalaşması təkcə yerli imkanlarla deyil, həm də tarixi proseslərin, mədəniyyətlərarası əlaqələrin, maarifçilik hərəkatının təsiri ilə mümkün ölçmüşdür. Bu bölgənin ədəbi irsi Azərbaycan ədəbiyyatının ümumi xəzinəsinin ayrılmaz hissəsidir və gələcək nəsillər üçün dəyərli mənbə olaraq qorunub saxlanılmalıdır. Məqalədə Lənkəran ədəbi mühiti təkcə lokal səviyyədə deyil, ümummilli ədəbi prosesin bir parçası kimi dəyərləndirilmişdir.*

***Açar Sözlər:*** *Lənkəran ədəbi mühiti, XIX əsr, ədəbi məclislər , mühiti formalaşdıran amillər.*

## Giriş

Azərbaycan ədəbiyyatı tarixində ədəbi məclislərin təşkilinin sorağı qədim dövrlərdən XII əsrdə Eldəgizlər (Təbriz), Şirvanşahlar (Şamaxı) saraylarında keçirilən şeir məclislərindən gəlsə də, bu məclislər "ədəbiyyatın əyləncə məclisləri" səviyyəsində olmuşdur. R. Həsənova və T. Əhmədov XIX əsri Azərbaycan ədəbiyyatı tarixinə həm də ədəbi məclislərin mütəşəkkil şəkil alması və formalaşması dövrü, *"saray ədəbi məclislərindən fərqli olaraq, demokratik səciyyəli kütləvi yaradıcılıq birliyi"* [1, s.25] kimi qeyd edirlər.

Tarixi mənbələrdən də məlumdur ki, XIX əsrdə Azərbaycan Rusiya tərəfindən işğal edildikdən sonra, ayrı-ayrı xanlıqların tabeliyində olan mərkəzi şəhərlər əyalətlərə çevrilmişdir. Ölkədə feodal quruluşun hökm sürməsinə baxmayaraq birləşdirilmədən sonra meydana gəlmiş şərait – kapitalistcəsinə inkişaf yoluna düşmüş Rusiya ilə Azərbaycan əyalətləri arasında ticarət və iqtisadi münasibətlər qüvvətlənirdi. Bu hadisə mərkəzi şəhərlərin ictimai- mədəni həyatına qüvvətli təsir göstərir, maarifçiliyin meydana gəlməsi üçün şərait yaradırdı. İctimai-ədəbi mühit özünü göstərir, ədəbi məclislər geniş vüsət alırdı.

Lənkəran ədəbi mühitinin Azərbaycan ədəbi prosesində olduqca mühim yeri vardır. Bu mühit öz rəngarəngliyi ilə ədəbiyyat tarixinə xüsusi çalar qatır. Mühitdə yetişən, formalaşan sənətkarlar və onların yaradıcılıqlarında qarşılaşdığımız bir çox məqamlar bunu əminliklə vurğulamağımıza şərait yaradır. Belə ki, mühitdə yazıb yaradan şairlərin əksəriyyətinin yaradıcılığında bir çox klassiklərimiz, xüsusilə də Məhəmməd Füzuli ənənələri duyulsa da, xalq ruhunada sadiqlik də özünü göstərir. İstər XIX əsrin II yarısında, istərsə də müasir dövr Lənkəran ədəbi mühitində biz eyni prosesi müşahidə edirik.

Azərbaycanın bəhs olunan dönəmdə Rusiyaya ilhaqı və eləcə də iki yerə parçalanması, azərbaycanlıların Krım müharibəsində, rus-İran, rus – türk mübarizəsində məhz rus ordusunun tərkibində şücaətlə vuruşmalarını ədəbi simaların yaradıcılığındanda duymaq olur. Lakin buna baxmayaraq çar Rusiyası tərəfindən işğal olunduqdan sonra çar məmurları köləlik rejimini Azərbaycanda da yürütməyə başladı. Bu rejim təkcə aşağı təbəqə sakinlərini kölə vəziyyətinə salmadı, mülkədarları da asılı vəziyyətə saldı. Nəticədə bir zaman, xan, bəy tituluna sahib olan insanlar yoxsullaşaraq asılı vəziyyətə düşüb öz ağalığlarını itirdi. Qeyd olunan bütün məqamlar

poeziyada siraət edirdi. Xalqın düşdüyü acınacaqlı məqamlar, hətta qışı odunsuz soyuqda keçirməkləri M.İ.Qasirin dilində belə səslənirdi:

*Çıxdı yay, oldu payız, qış yetişir leşkər ilən,*
*Himəsiz kimsə durub, mən kimi əşki -tər ilən*
*Odunu olmasa hər kimsənin qış fəsli,*
*Ağlaşar tifli, çıxar yumruğa arvad ər ilən*
*Vay, mən Qasiri –ismayılın əhvalına vay:*
*Ki, odunsuz çıxarır başa qışı Hacər ilən* [3, s.153].

Araşdırmalar zamanı XIX əsrdə Qurani –Kərimə, İslam dininə bağlılıq ədiblərin yaradıcılığında daha çox müşahidə olunur. Əminliklə vurğulamaq olar ki, Lənkəran ədəbi mühitində bu bağlılıq daha çox sezilir. Axund Hacı Mirəziz Seyidzadə "İslami söhbətlər" kitabının XIX yüzillikdə Azərbaycandakı ədəbi məclislərin tarixinə dair bəhsində 1850-1900-cu illərdə Lənkəranda Mirzə İsmayıl Qasirin rəhbərlik etdiyi "Fövcül-füsəha" ədəbi məclisinin də fəaliyyətində İslam dini və tarixinə dair bəhs açaraq qeyd edir ki, klassik irsin öyrənilməsində, İslam dininin poetik və fəlsəfi köklərinin irsin öyrənilməsində, İslam dininin poetik və fəlsəfi köklərinin araşdırılmasında söz sənətinin xalq arasında təbliğ olunmasında, həmçinin yeni-yeni istedadların üzə çıxmasında adları çəkilən bütün ədəbi məclislərin böyük əhəmiyyəti olmuşdur.

Lənkəran ədəbi mühitində dini – fəlsəfi şeirlər içərisində əsas mövzu mərsiyələrdən ibarətdir. Bunun əsas səbəblərindən biri İmam müsibəti, bu müsibəti təkcə dini mərasimlərdə deyil, eləcədə adi yas mərasimlərində oxuyaraq təskinlik tapmaq idi. Əsasən Kərbəla hadisələrini əhatə edən mərsiyələr demək olar ki, əksər şairlərin yaradıcılığında yer alır. Usta Məhəmmədhəsən Nəccar bu hadisələri əhatə edən mərsiyəsində İmam Hüseynin ahı xatirinə bağışlanmağı xahiş edir:

*Bariaha, sən bu hüzzarın dəva qıl dərdinə,*
*Onların cürmün Hüseynin tut bərabər gərdinə,*
*Beyt əta qıl beytini hər fərdi, fərdin fərdinə,*
*Bizlərə Nəccar olubdur novhəgəar viranədə* [5, s.66].

Mərsiyələrlə yanaşı dini- fəlsəfi şeirlərdə Quran ayələrindən bəhrələnmək, Allaha, Peyğəmbərə olan dərin sevgi hissləri də əks olunmuşdur. Xüsusilə bir çox şeirlərdə Allaha yalvarış, onun böyüklüyü qarşısında baş əyərək qurtuluşa çağırış məqamları da yer almaqdadır. Mirzə Əhməd Kəminin beytində olduğu kimi:

*Ya Rəbb, dəxilik biz hamı şahi-şühədaya,*
*Hifz et bizi, əfv eyləginən ali-əbaya* [4, s.111].

Əlbəttə ki, Lənkəran ədəbi mühitini formalaşdıran əsas amillər təkcə yuxarıda adlarını sadaladıqlarımızla məhdudlaşmır. Lakin ən çox adlarını vurğuladığımız nüanslar Lənkəran ədəbi mühitində demək olar ki, bütün şairlərin yaradıcılığında müşahidə olunur.

**Nəticə**

Nəticə olaraq, Lənkəran ədəbi mühiti təkcə tarixi bir mərhələnin göstəricisi deyil, həm də bugünkü ədəbi və mədəni araşdırmalar üçün dəyərli bir mənbədir. Onun öyrənilməsi Azərbaycan ədəbiyyatının regional inkişaf dinamikasını anlamağa imkan verir və bu mühitin tədqiqi gələcək nəsillərə milli kimliyi, ədəbi düşüncə tərzini və tarixi- mədəni dəyərləri daha dərindən dərk etmək imkanı yaradır. Göründüyü kimi, Lənkəran ədəbi mühiti yalnız lokal əhəmiyyət daşımır. Onun təsir dairəsi regionun hüdudlarını aşaraq Azərbaycan ədəbiyyatının ümumi inkişafına töhfə vermiş, müxtəlif bölgələr arasında mədəni əlaqələrin formalaşmasına səbəb olmuşdur. Bu mühitin öyrənilməsi Azərbaycan ədəbiyyatının yalnız mərkəzlərində deyil, periferiyasında da zəngin və dinamik ədəbi proseslərin baş verdiyini sübut edir.

## ƏDƏBİYYAT


1. Həsənova, R. və Əhmədov, T. XIX əsr Azərbaycan ədəbiyyatı müntəxəbatı / tər.ed. R.Həsənova – Bakı: Bakı Dövlət Universiteti nəşriyyatı, – 1992, – 336s.
2. Hüseynzadə, Ə. XIX əsrin ikinci yarısında Azərbaycan tarixşünaslığı / tər.ed. Ə.Hüseyzadə – Bakı, Azərb. EA. nəşriyyatı,– 1967. – 455s.
3. Qasir, M.İ. "210"/ tər.ed. T. Axundov – Bakı: Şərq-Qərb, – 2015. – 506 s.
4. Talışlı, M, Seçilmiş əsərlər / tər.ed. E.Əhədov, İ.Cəfərov – Bakı: Adiloğlu, – 2007, – c.1. – 392s.
5. Yasəmən // – Bakı: (Mərsiyələr məcmuəsi ) məcmuəsi, – 1993.


***AMEA –nın Folklor İnstitutunun elmlər doktoru**
***üzrə dissertantı, filologiya üzrə fəlsəfə doktoru***
***E-mail: ele.eliyev@gmail.com***

**Narmin Mammadova**

## THE HISTORICAL AND CULTURAL FACTORS IN THE FORMATION OF THE LANKARAN LITERARY ENVIRONMENT

In the second half of the 19th century, the concept of a literary environment began to gain widespread importance in Azerbaijan. During this period, the formation of literary assemblies became a significant phenomenon in Azerbaijani literature from various perspectives – ideological, religious-philosophical-mystical, moral-didactic, geographical, historical, and cultural. The formation of the literary environment in Lankaran is closely linked to rich historical and cultural factors. Throughout history, Lankaran has been not only an important economic and strategic center but also a prominent cultural and literary hub of the country. The literary environment formed in this city developed under the influence of various historical and cultural factors and played a crucial role in the spiritual life of the region. The formation of the Lankaran literary environment was made possible not only by local means but also under the influence of historical processes, intercultural relations, and the enlightenment movement. The literary heritage of this region is an integral part of the overall treasury of Azerbaijani literature and should be preserved as a valuable source for future generations. In this article, the Lankaran literary environment is evaluated not only on a local level but also as a part of the national literary process.

**Keywords:** *Lankaran literary environment, 19th century, literary assemblies, factors shaping the environment.*

**Нармин Маммадова**

## ИСТОРИКО-КУЛЬТУРНЫЕ ФАКТОРЫ ФОРМИРОВАНИЯ ЛИТЕРАТУРНОЙ СРЕДЫ ЛЕНКОРАНИ

Во второй половине XIX века в Азербайджане понятие литературной среды стало приобретать широкое распространение. В этот период формирование литературных кружков стало важным явлением в азербайджанской литературе с различных точек зрения – идеологической, религиозно-философско-мистической, нравственно-дидактической,

географической, исторической и культурной. Формирование литературной среды Ленкорани связано с богатыми историческими и культурными факторами. На протяжении истории Ленкорань была важным центром не только в экономическом и стратегическом плане, но и в культурном и литературном отношении. Литературная среда, сложившаяся в этом городе, развивалась под влиянием различных исторических и культурных факторов и сыграла важную роль в духовной жизни региона. Формирование литературной среды Ленкорани стало возможным не только благодаря местным условиям, но и под влиянием исторических процессов, межкультурных связей и просветительского движения. Литературное наследие этого региона является неотъемлемой частью общего сокровища азербайджанской литературы и должно быть сохранено как ценный источник для будущих поколений. В статье ленкоранская литературная среда рассматривается не только на локальном уровне, но и как часть общенационального литературного процесса.

**Ключевые Слова:** *Ленкоранская литературная среда, XIX век, литературные кружки, факторы формирования среды.*

*Akademik İsa Həbibbəyli tərəfindən təqdim edilmişdir.*

**İlk daxilolma tarixi: 15.05.2025**
**Son daxilolma tarixi:18.06.2025**